# Sülh müqaviləsi qaçılmazdır

## Digər dörd kəndin geri qayıdacağı dövr də uzaqda deyil

**"Azərbaycan və Ermənistan sərhədinin artıq 12 kilometri demarkasiya və demilitasiya edilib. Bu, Azərbaycanın öz ərazi bütövlüyü uğrunda uzun müddətdir ki, apardığı mübarizənin əsas göstəricilərindən biri hesab edilə bilər".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, Azərbaycan bu nəticəni heç də asanlıqla qazanmayıb. Ermənistan xaricdən dəstək almaqla Azərbaycan torpaqlarının bir hissəsini işğal edərək 30 il ərzində ərazi bütövlüyümüzü tanımaq istəməyib. Ancaq bununla belə Azərbaycanın qətiyyəti, ağıllı liderinin olması və xalqla iqtidarın birliyi sonda torpaqlarımızın işğaldan azad edilməsinə gətirib çıxıb.

Deputat qeyd edib ki, əgər vaxtilə Ermənistanla əlaqələrimiz ancaq vasitəçilərlə mümkün olurdusa, indi artıq birbaşa kontaktla sərhəd nöqtəsində hər iki tərəfin səlahiyyətli nümayəndələri görüşərək sülh müqaviləsi və sərhədlərin dəqiqləşməsi məsələsini müzakirə edirlər. "Azərbaycanın qətiyyəti və öz hüquqlarını müdafiə edə bilməsi nəticəsində Ermənistanın işğalı altında olan səkkiz kənddən dördünün geri qaytarılmasına nail olduq. Ermənistan 1991-ci il vəziyyətinə uyğun olaraq Qazaxın dörd kəndini geri qaytarmağı öz öhdəsinə götürüb və bu proses artıq getməkdədir", - deyə A.Mirzəzadə əlavə edib.

Deputat hesab edir ki, digər dörd kəndin geri qayıdacağı dövr də uzaqda deyil. Sülh müqaviləsi razılaşdırıldıqdan sonra paralel surətdə sərhədlərin digər hissəsinin də dəqiqləşməsi prosesi gedəcək. Dünya Azərbaycanın öz suverenliyini qorumasının və bu istiqamətdə səylərinin, gördüyü işlərin şahidi oldu. Azərbaycan dövləti suverenliyini qətiyyəti, apardığı düzgün siyasəti və cəmiyyətin dövlətçilik xəttinə bağlılığı nəticəsində tam bərpa edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.10.